UNEC Elmi Xəbərləri, İl 7, Cild 7, iyul- sentyabr, 2019, səh. 71 – 86
Scientific Reviews in UNEC, Year 7, Volume 7, July – September, 2019, pp. 71 – 86

MÜASİR ŞƏRAİTDƏ İSLAM MALİYYƏ SİSTEMİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

E.A.Qəribli
i. e. n., dosent, UNEC
egaribli@hotmail.com
A.C.Əzimzadə
magistr, BMDM, UNEC
aslan_azimzadeh@bk.ru
C.R.Hüseynli
magistr, MBA, UNEC
jabbar_huseynli@unec.edu.az

Məqalə redaksiyaya daxil olmuşdur 2 sentyabr 2019; Çapa qəbul edilmişdir 10 oktyabr 2019

Xülasə
Tədqiqatın əsas məqsədi müasir şəraitdə İslam Maliyyə Sisteminin spesifik xüsusiyyətlərinin öyrənilməsinə yönəlmişdir. Tədqiqat işi müqayisəli təhlil və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatda İslam Maliyyə Sisteminin fəaliyyət prinsipləri sistemləşdirilərək kompleks araşdırılmışdır. Həmçinin tədqiqat işində İslam Maliyyə Sisteminin müasir dövrdəki və qlobal maliyyə böhranındakı vəziyyəti analiz edilmişdir. Tədqiqat nəticəsində İslam Maliyyə Sisteminin spesifik xüsusiyyətləri təhlil edilmiş, həmçinin bu sistemdən istifadənin yüksək perspektivli olması müəyyən olunaraq Azərbaycanda bu sistemin tətbiqinin verə biləcəyi səmərələr qeyd olunmuşdur. Tədqiqatın məhdudiyyətləri daha geniş praktik informasiya tələb etməsidir. Tədqiqatın praktiki əhəmiyyəti İslam Maliyyə Sisteminin spesifik xüsusiyyətlərindən yararlanaraq, digər ölkələrin maliyyə sistemlərinin təkmilləşdirilməsi və bunun nəticəsində iqtisadi böhranlara qarşı optimal adaptiv maliyyə mexanizminin yaradılmasıdır.

Açar sözlər: İslam Maliyyə Sistemi, İslam bankı, sukuk, maliyyə aktivləri, təkaful.
Jel Classification Codes: E44, G15, G20, P34

SPECIFIC FEATURES OF THE ISLAMIC FINANCIAL SYSTEM IN THE MODERN CONDİTİON

E. A. Garibli
can. of econ., assoc.prof., UNEC

A. J. Azimzadeh
master, IMDC, UNEC
J. R. Huseynli
master, MBA, UNEC

Received 2 September 2019; accepted 10 October 2019

Abstract

The main objective of the research is to study the specific features of İslamic Financial System in the modern condition. The research was carried out on the basis of research methods such as comparative analysis and logical summarization. In study principles of functioning of the Islamic Financial System was systemized with the complex research. The study also analyzes the state of the Islamic Financial System in the modern period and the global financial crisis. In the result of the investigation the Islamic Financial System and its specific features were analysed, at the same time it were identified prospects for using this system and potential benefits from the introduction of this system in Azerbaijan.Limitations of the study: to require more extensive practical information. The practical significance of the research study is to improve the financial systems of other countries, using the specific features of the Islamic Financial System, and, as a result, create the optimal adaptive financial mechanism for the economic crisis.

Keywords: İslamic Financial System, İslamic Banking, Sukuk, Financial assets, Takaful.

СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ИСЛАМСКОЙ ФИНАНСОВОЙ СИСТЕМЫ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

Э. А. Гарибли
к. э. н., доц., UNEC
А. Дж. Азимзаде
магистр, МЦМД, UNEC
Дж. Р. Гусейнли
магистр, MBA, UNEC

Резюме

Основная цель исследования заключается в изучении специфических особенностей Исламской Финансовой Системы в современных условиях. Исследовательская работа проводилась на основе исследований, таких как сравнительный анализ и логическое обобщение. В исследовании систематизированы комплекс-

ным исследованием принципы функционирования Исламской Финансовой Системы. Также в исследовании анализируется состояние Исламской Финансовой Системы в условиях современного периода и мирового финансового кризиса. В результате исследования были проанализированы специфические особенности исламской финансовой системы, а также были определены перспективы использования этой системы, и выявлены потенциальные выгоды от внедрения этой системы в Азербайджане. Ограничения исследования: требуется больше практической информации. Практическая значимость исследования состоит в том, чтобы улучшить финансовые системы других стран, используя специфические особенности Исламской Финансовой Системы, и, как следствие, создать оптимальный адаптивный финансовый механизм для преодоления экономического кризиса.

Ключевые слова: Исламская Финансовая Система, исламский банкинг, сукук, финансовые активы, такафул.

Giriş

Son zamanlarda dinamik inkişaf edən və qlobal maliyyə məkanında getdikcə daha çox inam qazanan İslam Maliyyə Sisteminin fəaliyyət göstərməsi mövzusuna maraq artmaqdadır. İslam maliyyə təşkilatlarının və institutkarının sayı daim artır, həmçinin qeyri-müsəlman ölkələrində fəaliyyətlərini inkişaf etdirən yeni İslam sığorta fondları və şirkətləri yaranır. Günümüzdə İslam maliyyə qurumlarının fəaliyyəti daha müxtəlif və mürəkkəb hala gəlir.Genişmiqyaslı əməliyyatların təşkili və dəstəklənməsi üçün İslam maliyyə təşkilatlarının imkanları, potensialı və səlahiyyətləri genişlənir. Məhz bu səbəblərdən İslam Maliyyə Sisteminin spesifikasını öyrənmək aktualdır.

İslam maliyyə sisteminin fəaliyyətinin əsas prinsipləri

"Din güclü bir qüvvədir və təsirinin təbiəti ilk növbədə hansı hissləri ruhlandırdığından və hansı hərəkətləri ilhamlandırmasından asılıdır..."[1]. Müsəlman dini təlimlərinə xas olan potensial gec olmasına baxmayaraq, qlobal maliyyə bazarının dəyişən mənzərəsinə, şübhəsiz, doğru təsir göstərir. İslam iqtisadiyyatının bazası və əsas lokomotivi olan İslam Maliyyə Sisteminin (İMS) fəaliyyəti müsəlman qanunları ilə tənzimlənir. İslam hüququnun əsasını normativ baxımdan universal sosial tənzimləmə sistemi sayıla bilən və iki qrup mənbəyə – Quran və Sünnəyə (Hədislərə) əsaslanan şəriət təşkil edir. İslam Maliyyə Sisteminin (İMS) fəaliyyətinin əsas prinsiplərinə riba, qarar, meysir və haram qadağaları daxildir.

Riba, yəni əvvəlcədən müəyyən edilmiş faiz dərəcəsi və ya gəlirlə əlaqəli olmayan və əmək xərcləri ilə əlaqəli olmayan digər miqdarda artım qadağandır. Bu barədə Quranda Bəqərə surəsinin 275-ci ayəsində deyilir: "...Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir..."[2] Ribaya qoyulan qadağa, sələmçi

fəaliyyətinin məhsul yaratmasına və cəmiyyətin sosial rifahının böyüməsinə səbəb olmaması ilə əlaqədardır. Qazanc əldə etmək İslamda müsbət qarşılanır, ancaq sosial ədalət prinsipi, mükafat almaq və ya itki vermə borcalanların və kreditorların mənafelərinə uyğun olmalı olduğunu tələb edir. Bununla bağlı əsas ortaya çıxan məsələ faiz ödənişlərinə qoyulan qadağanın praktikada necə görünməsidir. Bu məsələdə aşağıdakılar qadağan olunur:

- Kreditin həcmində hər hansı bir artım və ya borc faizinin hesablanması, hətta borcalan tərəfindən borcun gecikməsi halı baş versə belə;
- Kreditin xidmətinə və rəsmiləşdirilməsinə görə faktiki xərclərdən artıq olan yığımlar;
- Sıfır kupona sahib olanlar da daxil olmaqla, bütün növ istiqrazların dövriyyəsi;
- Kreditdə verilmiş məbləğlər üzrə faiz hesablandıqda kredit kartlarının emissiyası;
- Etibarlı investisiya əmanətləri istisna olmaqla, banklarda bütün növ əmanətlər üzrə faizlərin hesablanması.

Ğarar müqavilə şərtlərində məlumat və nəzarətin olmamasından irəli gələn həddindən artıq qeyri-müəyyənliyin və ya qeyri-şəffaflığın mövcudluğunu nəzərdə tutur. Ğarar şübhəli və naməlum malların uyğun olmayan qiymətə satılması hesab edilə bilər; dəqiq təsviri və ya ilkin yoxlanışı olmayan mallar; qeyri-ekvivalent barter mübadiləsi və s. Ğarar müqaviləni etibarsız edir. Müasir maliyyə fəaliyyətindəki yüksək qeyri-müəyyənlik sığorta və törəmə maliyyə alətləri əməliyyatları üçün xarakterikdir. Buna görə də, şəriət baxımından bu cür əməliyyatlar etibarsız sayılır. Hər hansı bir sahibkarlıq fəaliyyətində müəyyən bir risk və qeyri-müəyyənlik ehtiva etdiyini başa düşmək lazımdır. Lakin qeyd etmək lazımdır ki, müqaviləni yalnız həddən artıq qeyri-müəyyənlik və həddindən artıq əsassız risk etibarsız edir. Müvafiq olaraq, bu prinsipə və ğarar qadağasına əsasən, İslam Maliyyə Sisteminə ABŞ-da ipoteka böhranı və 1998-ci ilin avqustunda Rusiyada defolt kimi böhran hadisələri təsir edə bilməz.

Meysir ərəb dilindən tərcümədə İslamın qeyd-şərtsiz qadağan etdiyi "qumar" deməkdir. Meysir daha asan şəkildə desək, öyrənilməmiş təsadüfi gəlirdir. Geniş bir kon-tekstdə, real məhsul yaratmadan genişləndirilmiş istehsal məqsədi ilə pul axınının qadağan edilməsi kimi qəbul edilə bilər. Bu da öz növbəsində müasir maliyyə sisteminə xasdır.

Haram ərəb dilində "günah" deməkdir və alkoqollu içkilərin yayılması, bütlərin istehsalı və satışı, bütpərəst məbədlərinə xidmət göstərilməsi, qumar oyunlarında iştirak və s. kimi işlərdən insanların çəkinməsini vacib edən əsas şəriət hökmüdür. İslam Maliyyə Sistemi fəaliyyətinin əsas qaydaları cəhətdən isə haram silah, alkoqol, tütün məhsulları, donuz əti istehsalı, rüşvət almaq və faizlə borc verməklə bağlı maliyyə əməliyyatları qadağan edir. İslam Maliyyə Sisteminin fəaliyyətinin əsas qaydaları "spekulyativ" davranışı, əsassız riski, qeyri-müəyyənliyi və qumar oyunlarını qadağan edir, çünki bu cür fəaliyyətlərdən əldə olunan gəlir cəmiyyətin rifahının real artmasına səbəb olmur [3].

İslam Maliyyə Sistemi eyni zamanda toxunulmazlıq və müqavilə öhdəliklərinin yerinə yetirilməsi tələbləri, risklərin bərabər paylanması, iqtisadi rifah və sosial ədalətin tarazlı təqib olunması kimi prinsiplərə əsaslanır. Əxlaq normalarına riayət etmək, sosial ədalət, qanun çərçivəsində hərəkət etmək, xərclərin normallaşdırılması, bazarların inhisarçılığının ləğvi İslam iqtisadi fəaliyyətinin əsas təməlləridir. [4]

İslam Maliyyə Sisteminin formalaşması yalnız qurumlar arasında iqtisadi və maliyyə əlaqələri çərçivəsində baş vermir, eyni zamanda etik, əxlaqi, sosial, mədəni və dini sahələr çərçivəsində də baş verir. Buna görə də, İslam Maliyyə Sitemi modelinin reallaşdırılması İslam təlimləri kontekstində, yəni etika, sərvət bölgüsü, sosial və iqtisadi bərabərlik, dövlətin rolu kontekstində mümkündür. Beləliklə, İslam maliyyəsi sisteminin fəaliyyət prinsipləri bazar iqtisadiyyatının əsaslarına zidd deyil və ənənəvi Avropa və Azərbaycanın sosial-mədəni dəyərləri ilə ciddi fikir ayrılıqları yoxdur.



Şəkil 1. Dünya ölkələri üzrə İslam Maliyyə Aktivləri (mlrd ABŞ dolları ilə)
Mənbə: Global İslamic Economy Report 2018-2019 [5]

Yuxarıda göstərdiyimiz şəkildə 2018-2019-cu illər ərzində dünya ölkələri üzrə islam maliyyə aktivlərinin dəyərinə görə ilk 10 sırada yer alan ölkələr göstərilib. İlk üç sırada yer alan ölkələrin, yəni İran, Səudiyyə Ərəbistanı və Malayziyadakı islam maliyyə aktivləri uyğun olaraq 578, 509, 491 milyard ABŞ dollarıdır. Bu göstəricilər kifayət qədər ciddi rəqəm olduğundan düşünürük ki, islam maliyyə sisteminin araşdırılması labüddür.



Qrafik 1. 2012-2017-ci illər ərzində ümumdünya islam maliyyə aktivlərinin ümumi dəyəri və artım tempi (mlrd ABŞ dolları ilə)

Mənbə: Thomson Reuters. İslamic Finance Development Report (İFDR) 2018. [6]

Qrafikdən də göründüyü kimi, 2012-2017-ci illər ərzində dünya ölkələrində islam maliyyə aktivlərinin artım tempi 6% təşkil etmişdir. Həmçinin 2017-ci ildə bu dəyər özünün maksimum həddinə çataraq 2438 milyard ABŞ dolları olmuşdur. İFDR tədqiqatçılarının hesablamalarına görə 2023-cü ildə dünya ölkələrində islam maliyyə aktivlərinin ümumi dəyəri 3809 milyard ABŞ dolları olması nəzərdə tutulur. Cədvələ nəzər salsaq görərik ki, 2014-cü ildə islam maliyyə aktivlərində azalma vardır. Bunun əsas səbəbi isə 2014-cü ildə dünya neft qiymətlərinin 45% azalmasıdır. Belə ki, İslam maliyyə aktivlərində ilk onluğa düşən əksər ölkələrin (Bəhreyn, Qətər, Küveyt, BƏƏ) və xüsusən də bu aktivlərdə lider olan ölkələrin (İran və Səudiyyə Ərəbistanı) iqtisadiyyatının əsasını neft sektoru təşkil edir. Məhz bu səbəbdən, neft qiymətlərində olan kəskin azalma ölkələrin tədiyə balansında mənfi saldo əmələ gətirmişdir. Bunun nəticəsində isə İslam maliyyə aktivləri azalmışdır. Lakin bu illərdə neft qiymətlərinin azalması uzunmüddətli olmadığı üçün yenidən İslam maliyyə aktivləri artan meyilli olmuşdur. Bu rəqəmləri təhlil edərək belə bir nəticəyə gəlmək olar ki, artıq dünyada İslam Maliyyə Sistemi inkişaf edərək qeyd etdiyimiz ölkələrin iqtisadi inkişaf modellərinin əsas lokomotivinə çevrilmişdir. Bu isə öz növbəsində mövzumuzun aktuallığını isbat edən səbəblərdən biridir.

İslam Maliyyə Sisteminin fəaliyyəti maliyyə dayanıqlılığı və sabitliyinə, gəlirlərin, məşğulluğun artmasına və nəticədə yoxsulluğun azaldılmasına gətirib çıxarır. Bu nəticələrə

nail olmaq üçün inkişaf etmiş bir maliyyə sistemi, qanunun aliliyi, investorların və kreditorların maraqlarını və mülkiyyət hüquqlarını qoruyan hüquqi qurumlar kimi şərtləri yerinə yetirmək və onlara sahib olmaq lazımdır; yaxşı idarəetmə və siyasi iradə; hökumətə etimad və s. Bir sıra İslam qaydalarının tətbiqi bu şərtlərin möhkəmləndirilməsidir. Beləliklə, İslam Maliyyə Sistemi maliyyə təşkilatları, tənzimləyici institutları, əməliyyat mexanizmləri və şəriət tərəfindən tənzimlənən maliyyə alətləri sistemidir.

İslam maliyyə sisteminin tərkib hissələrinin təhlili

İslam maliyyə sistemi İslam bankları, İslam sərmayələri və xeyriyyə fondları, İslam maliyyə şirkətləri; İslam sığorta təşkilatları və s. ilə təmsil olunur.

İslam bankları əmanətlərin qəbul edilməsi və investisiya qoyuluşu, ödəniş xidmətləri göstərmək, aktivlərin idarə edilməsi və saxlanması, habelə İslam maliyyə fəaliyyətinin prinsiplərinə uyğun digər əməliyyatlar olan qurumlardır. Fəaliyyətin əsası kredit faizi deyil, aktivlərlə aparılan əməliyyatlardan qazanc və zərərdə iştirak, yüksək sosial oriyentasiyadır. İslam Bankı komissiya agenti kimi çıxış edir və yalnız müvəffəqiyyətlə başa çatan əməliyyatlardan gəlir əldə edərək maliyyə vasitəçisi funksiyasından mükəmməl istifadə edir. Bank kapitalı birgə maliyyələşdirmə layihələri üçün istifadə edilmədiyi təqdirdə praktiki olaraq heç bir risk zonasında deyil. Bank zərərləri itirilmiş mənfəətin və imkan xərclərinin miqdarını təmsil edir, buna baxmayaraq, əmanətçilər qarşısında bankın bunlarla bağlı heç bir öhdəliyi yoxdur.

Cədvəl 1. İslam və ənənəvi banklar arasındakı əsas fərqlər

Xarakteristika	İslam bankı	Ənənəvi bank
Mənəvi dəyərlərin və dini ənənələrin mövqeyi	Etiqad prinsiplərinə riayət etmək	Yalnız maddi mənfəət əldə etmək
Faizlərdən istifadə etmək	Yoxdur	Var
Əməliyyatlarda spekulyativ xarakter	Yoxdur	Var
Qiymətli kağızlarla əməliyyatların aparılması	Passiv	Aktiv
Əsas layihələr	İnvestisiya yönümlü	Kredit yönümlü
Borcalanın qiymətləndirilməsi meyarları	Əxlaqi və maliyyə	Yalnız Maliyyə
Sosial yönümlülük	Yüksək	Aşağı
İnvestorlara mənfəət haqqında zəmanət	Mənfəət həddinə zəmanət verilmir.Layihənin uğurlu olmasından asılıdır	Mənfəətə zəmanət faizlər şəklində verilir
Mənfəət və risklərin bölüşdürülməsi prinsipləri	Layihənin etibarlılığı və rentabelliyi	Borcalanın kredit qabiliyyəti

Mənbə: [7], [8], [9]

Cədvəldən belə bir nəticəyə gələ bilirik ki, İslam Maliyyə Sistemi, real sektorun bank qurumlarının maraqlarına tabe olan mövqeyini məhdudlaşdırmağa kömək edir. Real sektordakı investisiya imkanları pul aktivlərinin formalaşmasını müəyyənləşdirir və bununla da maliyyə sektorunun gəlir səviyyəsi müəyyənləşdirilir. Nəticədə iqtisadi inkişaf tempini banklar deyil, əlverişli investisiya sahəsini təşkil edən real sektor təyin edir. Ümumiyyətlə İslam bank sisteminin əsasında tədqiqatımızın əvvəlində də qeyd etdiyimiz kimi, əxlaq, etimad və etiqad prinsiplərinə riayət etmək kimi məsələlər dayanır. İndi isə İslam banklarının maliyyəsi ilə bağlı əsas göstəricilər vasitəsilə təhlillər aparaq.



Qrafik 2. 2012-2017-ci illər ərzində ümumdünya islam bank aktivlərinin ümumi dəyəri və artım tempi (mlrd ABŞ dolları ilə)

Mənbə: Thomson Reuters. İslamic Finance Development Report (İFDR) 2018. [6]

Qrafiki təhlil edərkən görürük ki, 2012-2017-ci illər ərzində dünya ölkələrində islam bank aktivlərinin artım tempi 5% təşkil etmişdir.Eyni zamanda İslam bank aktivlərinin ümumi dəyəri 2017-ci ildə özünün ən yüksək səviyyəsinə çataraq 1721 milyard ABŞ dolları olmuşdur. İFDR tədqiqatçılarının hesablamalarına görə, 2023-cü ildə İslam bank aktivlərinin ümumi dəyəri 2441 milyard ABŞ dolları olması nəzərdə tutulur.

Hazırda dünyada 505 İslam bankı fəaliyyət göstərir. Onlardan 402-si kommersiya, 59-u investisiya, 24-ü topdansatış, 18-i isə ixtisas yönümlü banklardır. 2017-ci ildə cəmi ümumdünya bank aktivlərində İslam bankı aktivlərinin payı isə 6% təşkil etmiş-

dir.Lakin bu göstəricilərdəki islam bankı aktivləri yalnız 43 ölkənin məruzə etdiyi islam bankı aktivləri əsasında yaradılmışdır. 2017-ci il üzrə ümumdünya islam banklarının effektivlik göstəricisi 82% mənfəət, 18% isə itki təşkil etmişdir.



Qrafik 3. 2017-ci il üzrə ən yaxşı İslam bank bazarları
Mənbə: Thomson Reuters. İslamic Finance Development Report (İFDR) 2018. [6]

Qrafiki təhlil edərkən görürük ki, İran, Səudiyyə Ərəbistanı, Malayziya, Birləşmiş Ərəb Əmirlikləri və Qətərdə İslam bank aktivləri müvafiq olaraq 486, 376, 201, 180 və 98 milyard ABŞ dolları təşkil etmişdir. Bu ölkələr üzrə ən çox İslam bankı İranda ən azı isə Qətərdədir. Belə ki, İran İslam Respublikasında İslam banklarının sayı 42, Qətərdə isə 6-dır.

İslam banklarının işləmə mexanizmi öz spesifikasına görə hər zaman tədqiqatçıları cəlb etmişdir. Biz düşünürük ki, İslam Maliyyə Sisteminin əsasında dayanan başlıca məsələlərdən biri də məhz İslam banklarıdır. Bu banklar öz sosial yönümlülüyü ilə cəmiyyətə ənənəvi banklar kimi yalnız maliyyə vəsaitləri qazandırmır. İslam bank sistemində maliyyə, əxlaq və etiqad vəhdət təşkil edərək, cəmiyyətə maddi dəyərlərlə paralel olaraq, mənəvi dəyərləri də qazandırır. Bu da öz növbəsində maliyyə dayanıqlılığını şərtləndirən əsas amillərdən hesab oluna bilər.

İslam sığorta şirkətləri – təkaful şirkətləri (ərəbcə "təkaful" bir-birinə zəmanət vermək deməkdir və İslam sığortasının sinonimi kimi istifadə olunur) mahiyyət etibarı ilə, onlar ğarar, riba və meysirdən qorunmaq üçün fondun vəsaitlərini müəyyən aktivlərdə yerləşdirən, öz maliyyə fəaliyyətlərini İslam prinsiplərinə uyğun olaraq idarə edən şirkətlərdir.



Qrafik 4. 2012-2017-ci illər ərzində Təkaful aktivlərinin ümumi dəyəri və artım tempi (Mlrd ABŞ dolları ilə)

Mənbə: Thomson Reuters. İslamic Finance Development Report (İFDR) 2018. [6]

Qrafiki analiz edərkən görürük ki, 2012-2017-ci illər ərzində Təkaful aktivlərinin artım tempi 6% təşkil etmişdir.2017-ci ildə Təkaful aktivlərinin ümumi dəyəri 46 milyard ABŞ dolları təşkil etmişdir. 2023-cü ildə bu göstəricinin ümumi dəyərinin 72 milyard ABŞ dolları olması nəzərdə tutulur. Yeni yaranan islam sığortası üçün bu göstəricilər həqiqətən də qənaətbəxşdir. İslam sığortası geri qaytarılmayan bir hədiyyə anlayışına əsaslanır, hər bir iştirakçı sığorta hadisəsi baş verdikdə digər iştirakçılara kömək etmək məqsədi ilə fond üçün vəsait ayırır, bu da mahiyyət etibarilə ğararları istisna edir. Təkaful iştirakçıları, sığorta hadisəsi halında kompensasiya zəmanətinə əlavə olaraq könüllü yatırımlarından müntəzəm gəlir əldə edirlər, yəni müəyyən dərəcədə şirkətin ortaq sahibi olurlar.



Qrafik 5. 2017-ci il üzrə ən yaxşı İslam Təkaful bazarları

Mənbə: Thomson Reuters. İslamic Finance Development Report (İFDR) 2018. [6]

Ölkələr üzrə məsələni təhlil edərkən görürük ki, Səudiyyə Ərəbistanı, İran, Malayziya, İndoneziya və Birləşmiş Ərəb Əmirliklərində Təkaful aktivlərinin dəyəri müvafiq olaraq 15, 12, 9, 3, və 1.5 milyard ABŞ dolları təşkil edir.Təkaful operatorları sayına görə isə qeyd etdiyimiz ölkələr arasında ilk sırada İndoneziya, son sırada isə Birləşmiş Ərəb Əmirlikləri yer alır. Belə ki, İndoneziyada Təkaful operatorlarının sayı 53, Birləşmiş Ərəb Əmirliklərində isə 15-dir.

İslam investisiya fondları iştirakçıların şirkətin aktivlərindəki paylarına, mənfəət və zərərlərinə bərabərhüquqlu olduqları müstəqil investisiya şirkətləridir. Fəaliyyətin əsas məqsədi etibar edilən idarəetmə əmanətlərini almaq və investisiya standartlarını İslam standartlarına uyğun və müvafiq alət və mexanizmlərdən istifadə etməklə idarə etməkdir. İslam sərmayələri obyektləri Müşahidə Şurası tərəfindən şəriət prinsiplərinə uyğun qiymətləndirilir və sosial məsuliyyətli investisiya fondlarının bir növü hesab olunur.

İslam xeyriyyə investisiya fondları öz fəaliyyətlərini əhalinin aktivlərini (əmlak və ya maddi aktivlər) idarə etməyə yönəldirlər, bu fəaliyyətlərdən əldə olunan vəsait yoxsulların xeyrinə alınır. Yoxsulluğun və gəlir bərabərsizliyinin azalması İslamda ən çox arzuolunan məsələlərdir. Belə ki, Quranda Zuxruf surəsinin 32-ci ayəsində deyilir: "… (maddi və mənəvi kamilliklər baxımından) onların bəzilərini bəzilərindən bir neçə dərəcə üstün etmişik ki, bəziləri digər bəzilərini xidmətə götürsünlər (və nəticədə bəşər cəmiyyətinin daha kamil və layiqli idarə sistemi formalaşsın)" [2]. Buradan belə nəticəyə gəlirik ki, zəngin və maddi durumu yaxşı olan şəxslərin cəmiyyət qarşısında müəyyən öhdəlikləri vardır. Burada artıq maliyyə sistemi deyil, şəxslərin davranışları daha ön plandadır. Lakin günümüzdə bu öhdəliklər tam yerinə yetirilmədiyindən gəlir bərabərsizliyi məsələsində bir o qədər də uğura nail olmaq olmur.

İslam Maliyyə Sisteminin effektiv işləməsinin əsas elementləri olan ödəniş sistemləri, hesablaşma klirinq sistemləri, mütəşəkkil ticarət mərtəbələri, elektron ticarət sistemləri, milli və beynəlxalq tənzimləmə, nəzarət və standartlaşdırma orqanları, reytinq agentlikləri, təhsil və elmi qurumlar olan İslam maliyyə infrastrukturunun mövcudluğundan, həmçinin İslam prinsiplərinə əsaslanan maliyyə monitorinqi ilə bağlı tövsiyələrdən asılıdır. İslam Maliyyə Sisteminin əsas komponentləri İslam maliyyə alətləridir. İslam maliyyə alətlərinin spesifik xüsusiyyətləri aşağıdakılardır.

- Əmanə – pul vəsaitinin etibarlı saxlanması üçün müqavilə, buna görə maliyyə vasitəçisi komissiya alaraq, müştərinin adından onlara sərəncam verir. Vasitəçi öhdəlikləri lazımınca yerinə yetirdiyi təqdirdə məsuliyyət daşımır.
- Kərd – bir tərəfin maddi aktivlərə sahiblik hüququnu digər tərəfə geri qaytarıla bilən əsaslarla köçürdüyü bir müqavilə. Bu zaman həqiqi xərclərin miqdarına bərabər kredit borcu haqqı almaq hüququ var.
- Muşarəkə – mənfəət məqsədi ilə aktivlərin, mənbələrin və ya öhdəliklərin birləşdirilməsi üçün müqavilə. Zərərlər iştirakçıların payına nisbətdə bölünür. Mənfəət ya

kapitalın payındakı paya əsasən bölüşdürülə bilər, ya da ümumi töfhə payından aşağı ola bilər.

- Mudarəbə – mənfəət üçün tərəfdaşlıq və güvən idarəetmə müqaviləsi, bir tərəf kapitalla təmin edir, digər tərəf kapitalı idarə etmək üçün sahibkarlıq qabiliyyətini. İnvestor qoyulmuş vəsaitin həcmində itkilərə görə məsuliyyət daşıyır və idarəetmədə iştirak etmək hüququna malik deyil. Mənfəət bərabər və ya fərqli hissələrdə bölüşdürülə bilər.
- Murabəhə – bir müştəri üçün zəruri bir aktivin alınması və təxirə salınmış bir ödənişlə satılması üçün bir əməliyyat. Aktiv qızıl, gümüş və ya valyutadırsa, icazə verilmir. Qiymətə satıcı tərəfindən razılaşdırılmış mənfəət və xərclər daxildir. Maliyyə qurumlarına cərimə almaq qadağandır.
- İcarə – obyekt sahibinin müəyyən bir müddətə başqa bir şəxsə verdiyi icarə müqaviləsi. Gec ödənilməməsi üçün cərimə şəklində gəlirə icazə verilmir, cərimə xeyriyyə fondlarına köçürülür; icarəyə götürülmüş əmlak İslam sığorta şirkətləri tərəfindən sığortalanır, sığorta xərcləri icarədar tərəfindən ödənilir.
- İstisna – satış müqaviləsi olaraq tikinti işlərinin görülməsi, bahalı nəqliyyat vasitələrinin alınması və ya sifariş əsasında istənilən malların istehsalıdır. Malların ödənişi mərhələlərlə aparılır. Təbii mənşəli mallara aid deyil. Mənfəət müqavilə və paralel subpodratın qiymətindəki fərqin nəticəsidir.
- Sukuk – sahibinin yatırılan vəsaitin miqdarına nisbətdə əsas aktivin sahibliyində iştirak etmək hüququnu təsdiqləyən sertifikat. Borc sukunun dövriyyəsi qadağandır. Suveren, bələdiyyə, idarəlik və korporativ qurumlar emitent ola bilər.
- Təkaful – razılaşma tərəflərinin məruz qala biləcəyi müəyyən risklər nəticəsində itkini aradan qaldırmaq məqsədi ilə bir qrup şəxs arasında razılaşma. İştirakçılar könüllü töhfələr fondunu yaradır və agentlik müqaviləsi əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün lisenziyası olan şirkəti idarə edirlər [4, 10, 11].

Bunlar hamısı İslam maliyyə aləti olmasına baxmayaraq. İcarə, Murabəhə, Mudarəbə, və Muşarəkə hamısı Sukukdan ayrılan qollardır. Məhz ona görə də tədqiqatımızda İslam maliyyə alətlərindən ən vacibi olan Sukukun mövcud vəziyyətini təhlil edəcəyik.



Qrafik 9. 2012-2017-ci illər ərzində Sukuk aktivlərinin ümumi dəyəri və artım tempi (mlrd ABŞ dolları ilə)

Mənbə: Thomson Reuters. İslamic Finance Development Report (İFDR) 2018. [6]

Qrafiki analiz edərkən görürük ki, 2012-2017-ci illər ərzində Sukuk aktivlərinin artım tempi 9% təşkil etmişdir. 2017-ci ildə sukuk aktivlərinin ümumi dəyəri 426 milyard ABŞ dolları təşkil etmişdir. 2023-cü ildə bu göstəricinin ümumi dəyərinin 783 milyard ABŞ dolları olması nəzərdə tutulur. Ümumiyyətlə Sukuk 2017-ci ildə ümumi dəyəri 426 milyard dollar olan İslam maliyyəsi sənayesinin aktivlərinin ikinci ən böyük iştirakçısıdır. Cəmi 19 ölkə 2017-ci ildə 85 milyard dollar olan Sukuku buraxdı. Bunların 63% -i korporativ məsələlər, 31%-i suveren məsələlər, 6%-i isə agentliklər olmuşdur [6]. Ümumiyyətlə İslam maliyyə alətlərinin müsbət cəhəti onların rahat tətbiqetmə qabiliyyəti və əməliyyat xərclərinin az olmasıdır.

İslam maliyyə sistemi və qlobal maliyyə böhranı

Hələ 1988-ci ildə Nobel mükafatı laureatı, fransız iqtisadçısı Moris Alle mövcud strukturun qlobal maliyyə böhranından qaçılmaz olacağını qabaqcadan gördü və bunun nəticələri barədə xəbərdar etdi. M.Alle qəti şəkildə iddia etdi ki, gələcəkdə bu kimi böhranların qarşısını ala bilmək, effektiv pul sisteminin yaradılmasına imkan verən struktur islahatları ilə ən yaxşı şəkildə əldə edilir. Təklif olunan sistem iki əsas komponentə əsaslanır: faiz dərəcəsinin 0%-ə dəyişdirilməsi və vergi dərəcəsinin təxminən 2%-də qalması məsələsinə baxılması. M.Allenin qeyd etdiyi islahatlar İslam Maliyyə Sisteminin fəaliyyət prinsipləri ilə eyniyyət təşkil edir. Belə ki, İslam Maliyyə Sistemində faiz (riba) qadağan edilir və əsas ehtiyaclarından (nisab) artıq olan ən az xalis dəyəri olan bütün müsəlmanlardan zəkat (il ərzində sahib olduqları malların 2,5%) ödəməsini

tələb edir. Zəkat müsəlmanlar arasında sosial və iqtisadi ədalətin yayılması üçün hazırlanmış əsas iqtisadi vasitədir [9].

Faiz əsaslı əməliyyatlar qadağan edildiyi üçün İslam ədalətli və qanuni ticarət və ticarət fəaliyyətlərini təşviq edir. Buna görə də, İslam maliyyəsində maliyyə axını ilə məhsuldarlıq arasında həmişə sıx əlaqə mövcuddur. İslam maliyyəsinin bu ayrılmaz prinsipi 2008-ci ildə baş vermiş qlobal maliyyə böhranının əsas səbəblərindən biri olan həddindən artıq borclanma və spekulyativ maliyyə fəaliyyəti nəticəsində yaranan potensial risklərdən qorunmasına kömək edir. Tədqiqatımızda qeyd etdiyimiz kimi, İslam Maliyyə Sistemindəki müəyyən qadağalar və risklərin bölüşdürülməsi onu maliyyə böhranlarına qarşı immunitetinin olmasına gətirib çıxardan əsas amillərdəndir. Belə ki, qlobal maliyyə böhranında heç bir zərər çəkməmiş İslam Maliyyə Sisteminə qarşı xüsusi maraq yarandı. Qlobal maliyyə böhranı İslam Maliyyə Sisteminin coğrafiyasının genişlənməsinə səbəb olan əsas faktorlardan biri kimi çıxış edir.

Məsələyə başqa aspektdən nəzər salsaq görürük ki, David Brooks iqtisadiyyatın inam və inanc cəmiyyəti olduğunu, həmçinin hər bir tənəzzülün zehni bir hadisə olması ilə yanaşı, özünəməxsus ruha sahib olduğunu iddia edir [12]. Eynilə Joseph Stiglitz iddia edir ki, "maliyyə bazarları etibardan asılıdır və bu böhranda güvən pozulur" [13]. Qlobal maliyyə böhranlarının şiddətlənməsi qismən etimadın məhvinin nəticəsidir. İnsanlar maliyyə qurumları və ya hökumətlərin bir problemi həll etmək bacarığına sahib deyillər. Bu səbəbdən maliyyə qurumları bir-birlərinə və ya potensial müştərilərinə etibar etmirlər. Nəticədə şəffaflığı və etimadı artırmaq üçün bütün bazar iştirakçıları üçün ağıllı qaydalar yaratmağa ehtiyac var. Böhranın şiddəti və müddəti yalnız risklərin idarə edilməsi infrastrukturunun nə qədər tez bərpa olunmasından deyil, ümumi inamın nə qədər tez bərpa olunacağından da asılı olacaqdır. Məhz bu da İslam Maliyyə Sisteminin zəruriliyini şərtləndirən əsas amillərdəndir. Belə ki, İslam Maliyyə Sisteminin əsasında dayanan faktorlardan biri də etimaddır. İslam Maliyyə Sistemində etimad və mənəvi dəyərlərin ön plana çəkilməsi maliyyə dayanıqlılığını və sabitliyini şərtləndirir [14]. Bu isə öz növbəsində İslam Maliyyə Sisteminin böhranlara qarşı optimal adaptiv bir mexanizm olduğunu sübut edir.

Nəticə

İslam Maliyyə Sisteminə dünyada artan tələbatın artmasının əsas səbəbi bəzi müsəlman ölkələrinin əhəmiyyətli maliyyə qaynaqlarını toplamasıdır. Neft ixrac edən ölkələrin əhəmiyyətli gəlir əldə etmələri kontekstində İslam banklarının inkişafındakı mövcud tendensiyaların davam etməsi və İslam ölkələrinin maliyyə bazarlarının inkişaf etməsi göz qabağındadır. Bütün bunlar İslam banklarının fəaliyyətinin hərtərəfli öyrənilməsi və onların ənənəvi maliyyə bazarlarına daxil olması üçün ilkin şərait yaradır. Tədqiqatımızda İslam Maliyyə Sisteminin spesifik xüsusiyyətlərini təhlil edərək bu

maliyyə sistemindən istifadənin həm adi, həm də maliyyə böhranı dövründə müsbət nəticələr verdiyini əsaslandırmağa çalışdıq.

İslam Maliyyə Sisteminin spesifik xüsusiyyətləri aşağıdakılardır:

a) İslam Maliyyə Sisteminin fəaliyyətinin əsas qaydaları "spekulyativ" davranışı, əsassız risk, qeyri-müəyyənlik və qumar oyunlarını qadağan edir, çünki bu cür fəaliyyətlərdən əldə olunan gəlir cəmiyyətin rifahının real artmasına səbəb olmur. Bu cür qadağalar riba, haram, ğarar və meysir adlı kateqoriyalara bölünmüşdür.

b) İslam Maliyyə Sistemi toxunulmazlıq və müqavilə öhdəliklərinin yerinə yetirilməsi tələbləri, risklərin bərabər paylanması, iqtisadi rifah və sosial ədalətin tarazlı təqib olunması kimi prinsiplərə əsaslanır. Bu da öz növbəsində maliyyə dayanıqlılığını şərtləndirir.

c) İslam Maliyyə Sisteminin formalaşması yalnız qurumlar arasında iqtisadi və maliyyə əlaqələri çərçivəsində baş vermir, eyni zamanda etik, əxlaqi, sosial, mədəni və dini sahələr çərçivəsində də baş verir.

d) İslam Maliyyə Sistemi İslam bankçılığı, İslam sığorta şirkətləri və İslam investisiya fondları kimi tərkib hissələrindən ibarətdir.

e) İslam Maliyyə Sistemi real sektorun bank qurumlarının maraqlarına tabe olan mövqeyini məhdudlaşdırmağa kömək edir. Real sektordakı investisiya imkanları pul aktivlərinin formalaşmasını müəyyənləşdirir və bununla da maliyyə sektorunun gəlir səviyyəsini müəyyənləşdirir.

f) İslam Maliyyə Sistemində maliyyə alətləri Əmanə, Kərd, Muşarəkə, Mudarəbə, Murabəhə, İcarə, İstisna, Sukuk və Təkafuldan ibarətdir.

Mövcud reallıqları nəzərə alaraq, əlavə etmək lazımdır ki, qloballaşma şəraitində İslam maliyyə modelinə ehtiyac xeyli artır. Qloballaşma dünyanın müxtəlif ölkələrinin iqtisadiyyatlarının və maliyyə sistemlərinin qarşılıqlı asılılığının artmasına səbəb olur. Bir ölkədə böhranın başlaması istər-istəməz digər ölkələrdə və bölgələrdə maliyyə və ya iqtisadi xarakterli zərbələrə səbəb olacaqdır. İslam Maliyyə Sistemi isə tədqiqatımızın təhlilində qeyd etdiyimiz kimi, bu böhranların qarşısını almaq üçün mükəmməl bir sistemdir. Biz düşünürük ki, qloballaşma kontekstində iqtisadi böhran yaşayan və ya bu riski daşıyan ölkələr İslam Maliyyə Sistemindən istifadə etməlidirlər. Bu ölkələrin ən optimal və risksiz adaptiv mexanizmi məhz İslam Maliyyə Sistemidir.

Göründüyü kimi, demək olar ki, hər hansı bir İslam maliyyə alətinin ənənəvi maliyyə sistemində bir analoqu var. Lakin İslam maliyyə alətlərinin üstün cəhəti tətbiqinin daha sadə və əməliyyat xərclərinin aşağı olmasıdır. Belə bir vəziyyətdə biz düşünürük ki, İslam maliyyə institutlarının ənənəvi maliyyə sistemlərində yaranması məqsədəuyğundur.

Azərbaycanda İslam Maliyyə Sisteminin tətbiqi öz növbəsində aşağıdakı üstünlükləri verə bilər.

- Ölkənin qloballaşma kontekstində yarana biləcək maliyyə böhranlarından asanlıqla çıxması;

- ❖ İslam maliyyə xidmətlərinin yaranması ilə bazarda yeni oyunçuların və rəqabətin yaranması;
- ❖ Qənaət yönümlü əhalinin əmanətlərinin artması;
- ❖ Sahibkar yönümlü əhalinin hesabına iqtisadiyyatda yatırımların artırılması;
- ❖ İnvestisiyanın həm daxili əmanət, həm də xarici investorların hesabında artması;
- ❖ Ölkədə maliyyə dayanıqlılığının və sabitliyinin təmin edilməsinin inkişafı.

Ədəbiyyat

1. Albright M. with Woodward B. (2007) "The mighty and almighty, reflection on America, God and world affairs. New York, Harper Perennial s.66;
2. Qurani-Kərim, (2005) Tərcümə: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Çıraq;
3. Gambeeva Yu.N. , Medvedeva S.N. (2018) "Islamic finance: features of formation and development. Rossiyskoe predprinimatelstvo" 19. (1). s.337;
4. Литау Е. Я. (2016) "Международные финансы: исламский банкинг как перспективная альтернатива традиционной системы финансирования" Экономика и управление, № 10 (132);
5. "An Inclusive Ethical Economy Global İslamic Economy Report 2018-2019" (2018) Developed and Produced Thomson Reuters s.45;
6. Thomson Reuters. İslamic Finance Development Report (İFDR) Building Moment, (2018). s.14,16,18;
7. Лазарев А. Д. (2016) "Исламские банки: принципы, услуги и различия с традиционными банками", Символ науки, № 4-1;
8. Сейфоллахи М. (2011) "Специфика продуктов исламского банкинга" Эффективна экономика, № 11;
9. M. Kabir Hassan, R. Kayed (2011) "The Global Financial Crisis and Islamic Finance Part 2", Islamic Finance and the Economic Global Crisis;
10. Зарипов И. А. (2016) "Исламские финансы как стратегический ориентир развития России" , Вестник финансового университета, № 1 (91);
11. Львова, Н. А. (2013) "Исламские банки: особенности, проблемы, перспективы развития", Вестник Санкт-Петербургского университета. Серия 5. Экономика, № 1;
12. Brooks D. (2009) An Economy of Faith and Trust. New York Times – January 16;
13. Stiglitz J. E. (2008), The Fruit of Hypocrisy. The Guardian – September 16;
14. Ahmed H. (2009) "Financial crisis: risks and lessons for islamic finance", ISRA İnternational Journal of İslamic Finance Vol 1. Issue 1.